Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Bir aktyorun nağılı

**Şahmar Ələkbərovun 80 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“Bir aktyorun nağılı”** - Şahmar Ələkbərovun 80 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 23 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# Giriş

Görkəmli aktyor, rejissor Şahmar Ələkbərov Azərbaycan kino salnaməsində adı fəxrlə çəkilən şəxsiyyətlərdəndir. O, kinonu tamaşaçıya sevdirən, yaratdığı müxtəlif səpkili obrazlarla həmişəlik yaddaşlara həkk olunan sənətkardır. Onun yaratdığı obrazlara müraciət edəndə Gündüz Kərimbəylini (Arxadan vurulan zərbə) müdrik qanun keşikçisi, Cavidanı (Babək) əsl el qəhrəmanı, Qatır Məmmədi (Qatır Məmməd) igid xalq təəssübkeşi, imanı (Axırıncı aşırım) son damla qanını belə insanların firavanlığı üçün əsirgəməyən eloğlu, Qəzənfəri (Yeddi oğul istərəm) haqqı nahaqdan qoruyan vətənpərvər kimi qəbul edirik.

Şahmar Ələkbərov 23 avqust 1943-cü ildə Gəncədə anadan olmuşdu. 1964-cü ildə teatr institutunun "Aktyorluq" fakültəsində professor Rza Təhmasibin kursunu bitirmiş, III kursdan Akademik Milli Dram Teatrına işə götürülərək müxtəlif tamaşalarda uğurlu rollar ifaçısı kimi tanınmağa başlamışdı. Səhnədə qazandığı uğurlardan sonra Adil İsgəndərovun onu "Azərbaycanfilm"in nəzdində yaratdığı "Kino aktyorluğu" studiyasına dəvət etmişdi.

Şahmar Ələkbərovun kinoda ilk işi 1967-ci ildə kinorejissor Kamil Rüstəmbəyovun yazıçı-jurnalist Əhmədağa Qurbanovun "Tikanlı məftillər" povestinin mötivləri əsasında ekranlaşdırdığı "Dağlarda döyüş" filmindəki Fərrux obrazı olmuşdu. Filmdə dövlət sərhədinin qorunması, kimliyindən asılı olmayaraq torpağımıza pis niyyətlə soxulan hər bir insanın cəzalandırılması ideyası qabardılıb. Hadisələrin açılmasında məlum olur ki, sərhədi pozan qaçaqmalçılardan biri də Fərruxun atasıdır. Filmdə aktyorların emosional, maraqlı dialoqlarında biz Vətən anlayışını zəif mənəviyyatına qurban verən ata və doğulduğu,

böyüyüb boya-başa çatdığı, sevgisini tapdığı torpağa qətiyyən xəyanət etməyəcəyinə and içən örnək timsallı kamil bir övlad obrazını görürük. Fərruxun məntiqli monoloqları, insanları təkcə keçmişi ilə yaşamağa yox, gələcəklərini nikbin ruhla qurmağa sövq edir. Hərbi-macəra yanrında çəkilən bu film rejissor improvizləri və aktyor peşəkarlığı sayəsində dərin psixoloji nüanslarla işlənib. Məsələn, ətrafındakı insanların Fərruxa olan tənəli münasibətlərindən, gənc sərhədçinin pessimist xatirələrindən başa düşürük ki, onun xoşbəxt uşaqlığı olmayıb. Şahmar Ələkbərovun yaratdığı Fərrux obrazı minlərlə insana sübut etdi ki, valideynsiz, təkbaşına böyüməklə də həyatda müsbət cəhətli bir vətəndaş olmaq olar. Belə qüsursuz mövqedə olan bir gəncin həyat amalı filmin bədii keyfiyyətini, ekran həllini bu gün də qoruyub saxlamasına təkan verir.

Aktyorun yaradıcılıq karyerasında xarakterik rollarından biri də 1969-cu ildə kinorejissorlar T.Tağızadənin və A.Quliyevin birgə çəkdiyi "Mən ki, gözəl deyildim" filmindəki Məzahir obrazıdır. Bu filmdə Məzahir Böyük Vətən illərində (1941-1945) arxa cəbhədə çalışan fədakar gəncin obrazıdır. Aktyor Məzahir obrazının təfsirində müharibənin dəhşətlərindən bezmiş, pessimisliyə qapılmış insanlarda daim ruh yüksəkliyi yaratmağa çalışan, onları sevməyə, yaşamağa ruhlandıran, əslində isə çətinliklərin məngənəsində sıxılan, sıxıntısını da əsl kişiliyə məxsus bir cəhət kimi gizlədən həyatı bir qəhrəman obrazını yaradır.

Şahmar Ələkbərovun personajları həm ideya-bədii cəhətdən, həm də kişilik simvolunun monumental təcəssümü kimi həmişə tamaşaçıda maraq yaradıb. O, müraciət etdiyi hər bir prototipin xüsisiyyətlərini özününküləşdirməyi, real personaj kimi tamaşaçıya çatdırmağı bacarırdı. Məsələn, rejissor A. Babayevın "Arxadan vurulan zərbə" filmindəki

müstəntiq Gündüz Kərimbəylinin sakit, təmkinli görünüşü, mənalı və ağıllı gözləri, təbii jestləri aktyorun ifasında bizə işinin peşəkarı olan bir obrazın həyat mövqeyini, ciddi iş prinsipini tamlığı ilə açıb göstərir. Bu isə birbaşa personajın varlığına, hadisələrin reallığına tamaşaçını inandıran aktyor ifaçılığı ilə bağlıdır.

Şahmar Ələkbərovun rəngarəng obrazlarına nəzər salanda onun çalışqan, öz yaradıcılığı üzərində daim işləyən bir aktyor olduğunu görürsən. O, kinorejissor E.Quliyevin "Babək" filmində xürrəmilərin başçısı, cəsur sərkərdə Cavidan obrazını bacarıqla yaradıb. Tarixi-dram janrında çəkilən bu filmdə Cavidan obrazının vətən sevgisini, yanğısını, bütövlükdə dramaturji əsərin şərhini aktyorun canlı, təbii ifalarından görmək mümkündür. Cavidan Əbu İmranla döyüşdə öz əqidəsi, məsləki uğrunda həlak olur. Ekranda az görünməyinə baxmayaraq aktyorun obraza uyğun xarakterik cəhətləri film boyu onun varlığını, qəhrəmanlığını xatırlamağa səbəb olur. Bu mənada aktyorun peşəkarlığı iştirakçısı olduğu filmlərin ekran həllini itirməməyinə rəvac verir.

Şahmar Ələkbərov ikinci planlı və epizodik rollarını da filmin aparıcı qüvvəsi səviyyəsində canlandırıb. Aktyorun kinorejissor Kamil Rüstəmbəyovun "Axırıncı aşırım" filmində yaratdığı İman obrazı, xalqına edilən amansızlığa qarşı mübarizə aparan inqilabçı fikirli, əməlisaleh bir insandır. İman və dostlarının sosial bərabərlik ideyası sovet quruluşunun təməl sütunlarından idi. Əsas təşəkkül mərhələsi sovet dövrünə aid olan milli kinomuz xüsusi ideologiyalar əsasında gerçəkləşsə də, filmlərin hamısının bir ideyası vardı ki, bu da insan hüquqlarının tapdanmasının, mövhumatçılığın qarşısının alınmasının və yeni həyat

quruculuğu uğrunda zəhmətkeş gəncliyinin inkişaf etdirilməsi idi.

Kinorejissor T.Tağızadənin "Yeddi oğul istərəm" filmindəki Qəzənfər obrazı da sinfi bərabərsizliyə qarşı mübarizə aparan inqilabçılardandır. O, ağa və bəylərə, var-dövlət hərislərinə qarşı döyüşsə də, qardaş qırğının əleyhinədir. Bu filmdə yedii oğuldan biri olan Qəzənfərin özünəməxsus fərqliliyi həyatsevərliyindən irəli gələn baməzə xüsusiyyətidir. Kənd sakinlərindən biri olan Qəqəniyə silah tutmağı, tapança atmağı öyrədən Qəzənfərin ölüm ayağında belə sərrast atan şagirdin əli ilə "əla" işarəsini göstərməsi həm onun atıcılığına həm də özündən sonra növbəti bir qəhrəman yetişməsinə sevindiyini göstərir. O, obrazlarının ifadə dilini dəqiq yaradıcı improvizələri ilə zənginləşdirirdi.

Kinorejissor Rasim Ocaqovun tarixi-bioqrafik janrda çəkdiyi "Qatır Məmməd" filminin baş qəhrəmanı xalqın əmin-amanlığının keşiyində dayanan cəsur bir simadır. Zəiflərin bədbəxtliyi üzərində xoşbəxtliyini quranlara qarşı həyatını mübarizəyə həsr edən Qatır Məmmədin bir arzusu var: elində, obasında tərəqqi və sabitliyi bərqərar etmək. Aktyorun xarakterinə uyğun düzgün verilmiş rejissor şərhi güclü yaradıcılıq potensialına malik olan tərəf-müqabillərinin (Səməndər Rzayev, Yusif Vəliyev və b.) dəqiq oyunları onun ifaçılığını daha da zənginləşdirirdi. Hər dövrün kəskin ictimai məsələlərinə ekran dili ilə aydınlıq gətirən geniş diapazonlu aktyor ifası, iştirak etdiyi bütün filmlərin dərin bədii təcəssümünü diqqətəlayiq tərzdə yarada bilirdi.

Şahmar Ələkbərov dram aktyori kimi ona həvalə olunan bütün rolların öhdəsindən məharətlə gəlirdi. O, nəinki özünün çəkildiyi 30-a yaxın filmdə, eyni zamanda dublyajda səsləndirdiyi onlarla personajların xarakterlərini də tam dolğunluğu ilə tamaşaçıya çatdırmağa çalışırdı.

Yaradıcılığındakı ampula çərçivəzliyini o, dublyajlarda səs aktikulyasiyasına istinadən səsləndirərək yaratdığı obrazlarla da sübut etdi. Onun müdrik səsinin ahəngində özünəməxsus bir nikbinlik hiss olunurdu. O, rolları daxilindən gələn elə həyatsevərliklə səsləndirərdi ki, personajlar sanki bizimlə həmsöhbətə çevrilirdi. Biz ekranda təsvir olunan mikroaləmi və personajların düşdüyü vəziyyəti asanlıqla və maraqla qavrayırdıq. Aktyorun filmoqrafiyasına daxil olan 100-dək dublyaj filmlərdən "O qızı tapın", "Uşaqlığın son gecəsi", "Şərikli çörək" və "Mozalan" studiyasında istehsal olunmuş çox sayda filmlərin adlarını çəkmək olar. Bu isə Azərbaycan kino sənətini zənginləşdirən Şahmar Ələkbərov yaradıcılığında sxematikliyin, bənzərliyin olmadığından xəbər verir.

Şahmar Ələkbərov kinoya bağlılığını rejissoru olduğu filmləri ilə təsdiqlədi. O, 1987-ci ildə ilk olaraq G.Əzimzadə ilə birlikdə "İmtahan" bədii televiziya filmini ekranlaşdırdıqdan sonra müstəqil olaraq "Sahilsiz gecə" və "Qəzəlxan" filmlərini çəkdi. Aktyorluq sənətində daim yüksək dəyərlərlə təlqin etdiyi müsbət xarakterli insani keyfiyyətlərin vacibliyini o, çəkdiyi filmlərinin də əsas qayəsinə çevirdi. Səhhəti ona icazə verməsə də Şahmar müəllim rejissor yaradıcılığında psixoloji janra üstünlük verməklə həyat və insanlar haqqında dərin, fəlsəfi bilgilərinə əsasən deyəcəyi hələ çox sözü olduğunu nümayiş etdirirdi.

Azərbaycan kinosunda əvəzsiz rolları ilə yadda qalan Şahmar Ələkbərov adı hər zaman hörmət və məhəbbətlə anılan sənətkarlardandır. Onun yaradıcılığında əks olunan zəngin həyat anlayışından tamaşaçının ömür yoluna bu gün də işıq saçılır. Bu, Şahmar Ələkbərovun müdrik sənət dünyası idi. Xalq arasında əsl sənətkar statusu da bu kimi dəyərlərdən

qaynaqlanır. Sənət və sənətkarlar da bu mənada həmişə yaşardır. Şahmar Ələkbərov kimi.

## Bölmə II

## Yubiley tədbirlərinin keçirilməsi

Böyük sənətkar, sadə insan, səmimiyyəti ilə böyük hörmət qazanmış Şahmar Ələkbərovun avqustun 23-də 80 illik yubileyi qeyd olunur. Aktyorun yubileyi respublikamızın bir çox yerlərində, tədris mərkəzlərində, kitabxana və muzeylərdə, teatrlarda, orta və ali məktəblərdə yüksək səviyyədə qeyd olunur. Yaratdığı obrazlarla, çəkdiyi filmlərlə adını əbədi olaraq kino tariximizə yazan sənətkar yaşasaydı 80 illik yubileyini qeyd edərdi.

Şahmar Ələkbərovun yaradıcılıq biblioqrafiyasına nəzər salmaq üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasında tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının geniş və maraqlı olması üçün ilk növbədə aktyorun yaradıcılığı ilə bağlı sərgilərin keçirilməsi məqsədəuyğundur. Bu baxımdan ilk kitab sərgisinin nümunəsini sizlər üçün təqdim edirik. Sərgilər həmişəki kimi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Şahmar Ələkbərov-80”, “Bir aktyorun nağılı”, “Yaxşıları ölüm seli apardı”, “Xatirəsi həmişə ürəklərdə yaşayacaq” və s.

“Şahmar Ələkbərov-80” adlı sərginin nümunəsini sizlər üçün təqdim edirik.
1.Başlıq: “Şahmar Ələkbərov-80”
2. Kitabların nümayişi
3.Görkəmli insanların Şahmar Ələkbərov haqqında söylədikləri sitatlar

4. Dövrü mətbuatda çap olunmuş kartotekaların siyahısı

5. Aktyorun rol aldığı filmlərin siyahısı

6. Foto albom


















F.Köçərli adına Respublika Uşaq Kitabxanasında məşhur aktyor, Azərbaycan səhnəsində öz sözünü layiqincə demiş mərhum sənətkar Şahmar Ələkbərovun yubileyi ilə bağlı keçirəcəyimiz tədbirlərdən biri də oxucularla söhbətdir. Tədbir kitabxananın oxu zalında təşkil olunur. “Xatirəsi həmişə ürəklərdə yaşayacaq sənətkar” adlı tədbirə bir çox qonaqlar dəvət alır. İncəsənət Unuversitetinin müəllim və tələbə kollektivi, aktyorun tərəf müqabilləri, incəsənət adamları, media nümayəndələri, kitabxananın əməkdaşları, fəal oxucular tədbirə dəvət alırlar. Kitabxanaçı söhbətə belə başlayır:  O, qısa bir ömür

yaşayıb, cəmi 49 il. Amma bu ömrə çox şey sığdıra bilib, unudulmaz olmağı bacarıb. Həm siması, həm də səsi ilə Azərbaycan kinosunda özünəməxsus iz buraxıb Şahmar Ələkbərov. Şahmar Ələkbərovun məxməri, məlahətli səsinin xüsusi sehri, qəlbəyatanlığı vardı. Nadir səsə malik olduğuna görə, onu bədii filmlərlə yanaşı sənədli filmlərin oxunuşuna da dəvət edirdilər. Səsinin məlahətli olmağı bir yana, o, həm də, kino dili ilə desək, çox yaxşı "ukladçik" (düzücü) idi. Dublyajda "ukladka" (düzmə) etməyə daha çox Həsən Əbluc və Şahmar Ələkbərov dəvət olunurdu. Bu, çox çətin iş idi. Gərək söz ehtiyatın çox ola, dili gözəl biləsən ki, improvizə edərək birbaşa yaza biləsən. İl ərzində Şahmarı ən azı 20-25 filmi səsləndirməyə çağırırdılar. Dünyasını dəyişəndə sənət dostlarından biri "Şahmarın səsinə göz dəydi, ona görə dilindən bəlaya gəldi" deyib kövrəlmişdi.

Şahmar Ələkbərovun yaddaqalımlı ekran personajları Azərbaycan kinosunun "Qızıl Fond"unun əsas hissəsini təşkil edir. O milli kinomuza bir-birindən maraqlı, koloritli obrazlar bəxş edib. Əsasən, "Döyüşən obrazlar" qalereyası yaradıb. 1967-ci ildən başlayaraq Azərbaycan kinosunda 30-a yaxın filmdə əsas rolları oynayıb. "Dağlarda döyüş" filmində Fərrux, "Mən ki gözəl deyildim" də Məzahir, "Yeddi oğul istərəm"də Qəzənfər, "Axırıncı aşırım"da İman, "Skripkanın sərgüzəşti"ndə Davud, "Qatır Məmməd"də Qatır Məmməd, "Bakıda küləklər əsir"də Azad, "Arxadan vurulan zərbə"də Gündüz Kərimbəyli, "Babək"də Cavidan.. Şahmar Ələkbərov 23 avqust 1943-cü ildə Gəncədə anadan olub. Atası əslən Cəbrayıllı Zülfüqar kişi, anası kökü Tiflisə bağlı İzulət xanımdır. Şahmarın 9 yaşı olanda ailəsi Gəncədən Bakıya köçür. Ailəsi aktyor olmağını istəmir. Hətta, buna görə ondan küsürlər.

Şahmar Ələkbərov iş həyatına erkən başlayır, III kursda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına işə qəbul

olunur. Həyat yoldaşı teatrşünas Kəmalə xanımla teatrda tanış olurlar. Kəmalə xanım Şahmarın iştirak etdiyi bütün tamaşalara baxırmış. Şahmar Kəmalə xanıma elçi göndərəndə valideynləri qızlarının aktyorla ailə qurmasına razı olmurlar. Dörd ildən sonra o, yenidən elçi göndərir və onlar evlənirlər. Bu evlilikdən onların əkiz qız övladları Ləman və İzulət doğulur.
Onun kino aktyoru kimi karyerası "Dağlarda döyüş" filmindən başlayır. Şahmar Ələkbərov kinoda rejissor kimi 2 film çəkir, ("İmtahan", "Sahilsiz gecə”). Onun ssenarisi əsasında şair Əliağa Vahidə həsr olunmuş "Qəzəlxan" filmi də uğurlu alınır. "Sahilsiz gecə" əslində aktual bir mövzuya həsr olunsa da, film etirazlara səbəb olur. Bu Şahmar Ələkbərovu xeyli ruhdan salır. Şahmar çox ailəcanlı adam olub. Əkiz qızlarını həddindən çox sevib. Onların hər iksinin toyunu bir gündə o vaxtkı “Abşeron” mehmanxanasının restoranında edib. İş yoldaşı kimi də hər kəs onu məsuliyyətli, mehriban, sadə biri olaraq xatırlayır. Ömrünün son illərində onda meyxanaya maraq yaranır. Hətta meyxana teatrı da yaratmaq istəyir, amma ömür vəfa eləmir. Şahmar Ələkəbərov yaşının ən gözəl, yaradıcılığının ən məhsuldar vaxtında xərçəngə tutulur. Düz yeddi il xəstəliyi ilə mübarizə aparır. "Firəngiz" filminin çəkilişlərindən əvvəl stomatoloqa gedir, burada onun dili zədələnir. Filmin çəkilişlərində soyuqladığı üçün dilindəki əzik xoraya çevrilir. Xəstəliyinin ağır günlərində ən yaxın dostlarının belə onunla görüşməsinə, onu xəstə vəziyyətdə görməsinə razılıq verməyib. 1992-ci ilin qışında onu Hamburqa aparırlar. Orada ona heç nə deyilməsə də, ailəsinə bu xəstəlik qarşısında tibbin gücsüz olduğu bildirilir. Uzun sürən xəstəlikdən sonra görkəmli kino xadimi, Xalq artisti 12 avqust 1992-ci ildə 48 yaşında dil xərçəngindən vəfat edir. Şahmar Ələkbərovun xanımı və evli olan əkiz qızları İzulət və Ləman Ələkbərovalar çoxdandır xaricdə yaşayırlar. İzulət xanımın həyat yoldaşı Fuad İsgəndərov Azərbaycanın Belçika Krallığında fövqəladə və

səlahiyyətli səfiri və eyni zamanda Azərbaycanın Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı vəzifəsində çalışıb.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında yubileylə bağlı ədəbi-bədii gecənin də keçirilməsi nəzərdə tutulmuşdur. Ədəbi-bədii gecə kitabxanada ən çox keçirilən və sevilən tədbirlərdən biridir. Tədbir müxtəlif başlıqlar altında keçirilə bilər. "Xatirəsi həmişə ürəklərdə yaşayan sənətkar" adlı tədbir iki hissədən ibarət olur. Səhnə gül dəstələri ilə bəzədilir. Aktyorun portreti divardan asılır.



Birinci hissə çıxış və məruzələrlə başalyır. Dəvət olunan qonaqlar aktyorun həyat və yaradıcılığından onun keçdiyi keşməkeşli həyat yolundan danışırlar.

**I Aparıcı:** Həmişə nikbin çöhrəli, qayğıkeş və o qədər də səmimi görünərdi. Bu nikbinlik ona tanrı vergisi idi. İnsanları sevirdi və bu sevgi onun təbiətində idi. Onun xoşhal, insanpərvər, humanist duyğuları sənətinə də keçmişdi. Rolları da özünə oxşayırdı. Hansı rolunu götürsək görərik ki, elə Şahmardı ki, durub. Şahmar Ələkbərov Azərbaycan kinosu üçün qəlbən yanan, onun sevinc və ağrılarını çiyinlərində daşıyan,

milli ruhlu, qüdrətli bir sənətkar idi. Zaman-zaman bu böyük sənətkar öz ruhunun nikbin notlarını bizim kinomuza ötürdü. Hətta kinomuzun sovet ideologiyasına xidmət etdiyi vaxtlarda ekranlarımıza  sırf milli xarakterlər gətirdi. O, kinonu çox sevirdi. Deyirdi ki, məndən olsa hər gün işləyərəm. Axı bizim kinonun problemləri hələ çoxdur.

Bu çoxlu problemlər içərisində çarpışa-çarpışa Şahmar Ələkbərov öz ömrünü əritdi kinonun içərisində. Rollara çəkildi, filmlərə quruluş verdi, dublyajda yüzlərlə rol səsləndirdi. Ürəyində, qəlbində çoxlu arzular aparsa da, milli kinomuzun traixində layiqli izi qaldı.

Şahmar Ələkbərovun yaradıcılıq bioqrafiyasında elə filmlər var ki, onlar milli mənəvi dəyərlərimizin ən qiymətli nümunələri sırasındadır. Bunun səbəbi isə bu filmlərin milli-mənəvi dəyərlərimizə söykənərək tariximizin müəyyən dövrünün real ab-havasını canlı əks etdirməsidir.

1967-ci ildə “Azərbaycanfilm” kinostudiyası “Dağlarda döyüş” filmini istehsalata buraxır. Yazıçı Əhmədağa Qurbanovun “Tikanlı məftillər” povesti əsasında rejissor Kamil Rüstəmbəyovun ekranlaşdırdığı filmdəki hadisələr İkinci Dünya müharibəsində əsir həyatı yaşamış insanların vətənə qayıtdıqdan sonra qarşılaşdıqları faciəli aqibətdən bəhs olunur. Şahmar Ələkbərov kinoya sərhəd qoşunlarında xidmət edən əsgər Fərrux rolu ilə gəlmişdi. Bu gənc qəhrəmanda səmimiyyətin bütün çalarları birləşib, sevgiyə sədaqət, öz xidməti borcuna sadiqlik, çətinliyə dözüm və s. Filmin ən maraqlı epizodlarından biri, Fərruxun dövlət sərhədini pozmuş atası Sərxanla qarşılaşması və onu həbs edərək hərbi məntəqəyə təhvil verməsidir. İlk baxışda oğulun öz atasını həbs etməsi, onun xahiş və yalvarışlarına məhəl qoymaması bəlkə də qeyri-təbii görünür. Lakin filmdə bu hadisə psixoloji cəhətdən inandırıcı detallarla təqdim olunmuşdur. Belə ki, Vətənə sədaqət, vətənpərvərlik

duyğularının, məhəbbət hissinin güclü olması filmdə böyük uğurla öz əksini tapmışdır. Əslində yüksək ideallarla yaşamaq, vətəndaşlıq prinsiplərinə sadiq olmaq, həqiqət naminə ictimai idealı şəxsi mənafedən üstün tutmaq, bundan ötrü öz doğmasına belə güzəştə getməmək azərbaycançılıq mövqeyimizin ifadəsidir və dövlətçiliyimizin əsasında da məhz bunlar dayanır. Ötən əsrin 30-cu illərindən ədəbiyyatımızda yüksək ideallarla yaşamaq, vətənin əsl vətəndaşı olaraq onun keşiyində mərdliklə dayanmaq kimi ideoloji prinsiplər böyük vüsət almışdır. Bu mövzu davamlı olaraq müxtəlif formalarda işlənmiş, gənclərimiz bu ruhda tərbiyə almışlar. Haqqında bəhs etdiyimiz filmə gəlincə, bu ekran əsərinin ssenari müəllifi Əhmədağa Qurbanov ideologiyanı yeni nəslin simasında yenilikçi baxışlarla işləmiş, problemi inandırıcı mövqedən həll edərək əsəri uğurla ərsəyə gətirmişdir. Filmdə Fərruxla (Şahmar Ələkbərov) atasının (Rza Əfqanlı) çəkiliş səhnəsi Nalçik dağlarında, meşəliklərdə lentə alınıb. Həmin səhnədə Fərruxun atası İrandan gələrək sovet sərhədini keçmək istədikdə sərhədçi Fərruxun maneəsilə üzləşir. Belə ki, o, atası ilə vuruşmaq məcburiyyətində qalır. Əsərdən də görünür ki, Fərrux sərhədi pozanın atası olduğunu əvvəldən bilmir. Məsələ ondadır ki, bunu biləndən sonra da onunla vuruşur. Çünki Fərrux sovet əsgəri idi və başqa cür də davrana bilməzdi. Bunu da bilmək maraqlıdır ki, Hicranın (Ofeliya Sənani) atası (Möhsün Sənani) və anası (Ətayə Əliyeva) ilə evdə çəkilən səhnələr "Azərbaycanfilm" kinostudiyasının pavilyonunda lentə alınıb. Hicran eşidəndə ki nişanlısı yaralanıb, o zaman atını minib Fərruxun qulluq etdiyi hərbi hissəyə gedir. Bu epizod isə Qobustanda lentə alınıb. Filmdə gördüyümüz hərbi hissə isə İranın sərhədində olan Prişib qəsəbəsində (indiki Göytəpə) yerləşir. "Dağlarda döyüş"ün həyata vəsiqə aldığı vaxtdan 56 il ötməsinə baxmayaraq, əsərin ideya və məzmunu, bitkin süjeti və aktyor oyunları bu gün də tamaşaçıların nümayişini böyük həvəslə izlədiyi filmlər sırasındadır.





**II Aparıcı:** Ümumiyyətlə, 20 ildən çox yaradıcılığı dövründə müxtəlif rejissorlarla işləmişdi Şahmar Ələkbərov. Şahmar Ələkbərovun yaradıcılığında Məzahir obrazının özünəməxsus yeri var. "Mən ki, gözəl deyildim" filminin qəhrəmanı, sadə, səmimi gənc Məzahirin obrazı elə bil Şahmar Ələkbərovun xarekterinə biçilmişdi. Aktyor heç bir impovizəyə yol vermədən

bu sadə sürücünün bütün daxili dünyasını, ətrafdakılara münasibətini çox canlı ştrixlərlə tamaşaçılara çatdırır. Müharibənin ağır günlərində uzaq dağ kəndlərindən birində baş verən hadisələri əks etdirən bu lirik-dramatik filmin qəhrəmanları arasında nikbin xarakteri ilə seçilən Məzahirin öz yeri var. Məzahir kinomuzda yeni bir obraz idi. Bu sürücü oğlanın nikbin ruhu filmin faciəvi yükünü xeyli azaldır. O, həmişə gülür, zarafat edir, sanki insanların qəlbinə çökmüş müharibə ağrılarını dəf etmək istəyir. Məzahirin sevgisində də bir səmimiyyət var. Filmi rejissor Tofiq Tağızadə çəkmişdi. Ümumiyyətlə, Tofiq müəllimin "Qızıl qaz" və bir də "Mən ki, gözəl deyildim" filmlərində aktyor çox maraqlı, yaddaqalan obrazlar yaratmışdı.

**I aparıcı:** Şahmar Ələkbərovun elə qəhrəmanları var ki, onları xatırlamamaq mümkünsüzdür. "Yeddi oğul istərəm" filminə tamaşa edəndə hamımız Qəqəninin "Ölmə, Qəzənfər dayı, ölmə!" deyə onu yaralı halda qucaqladığı səhnəni səbirsizliklə gözləyirik. Bu çox nadir səhnələrdəndir ki, hətta ölüm anında aktyor tamaşaçını faciənin içərisindən qoparıb təbəssümə qovuşdurur. O, bunu bacarırdı və bu, hər aktyora xas olan keyfiyyət deyildi.

Şahmar Ələkbərov kinoda rejissor kimi də sözünü deyib. Onun bu sahədə ilk işi Gülbəniz Əzimzadə ilə birgə çəkdiyi "İmtahan" filmi olub. Sonra "Sahilsiz gecə"ni çəkib. Şahmar Ələkbərovun ssenarisi əsasında ekranlaşdırılan "Qəzəlxan" filmi də uğurlu alınıb. Bu film Azərbaycanın görkəmli şairi Ə.Vahidin həyat və yaradıcılığının müxtəlif anlarını canlandırır.

Xalq artisti, Dövlət mükafatı laureatı Şahmar Ələkbərov 1992-ci il avqustun 12-də vəfat edib. O, yeddi il əzab-əziyyətli xəstəliklə mübarizə aparıb. Stomatoloqda dili zədələnmişdi, çəkilişlərdə soyuqladığı üçün zədə xoraya çevrilmişdi. Şahmar Ələkbərov mürəkkəb müalicə terapiyalarına, xəstəliyinin

fəsadlarına mətinliklə dözürdü. Çox möhkəm iradəli adam idi. 1992-ci ilin qışında ailəsi tərəfindən Almaniyanın Hamburq şəhərinə aparılıb, amma orda da xəstəliyinə bir çarə tapılmayıb.

Bakıya qayıdanda Şahmar Ələkbərov xəstəxanaya yerləşdirilib. Uzun sürən əzab-əziyyətdən sonra görkəmli kino xadimi, xalq artisti və əməkdar artist, dövlət mükafatı laureatı Şahmar Ələkbərov 49 yaşında dil xərçəngindən vəfat edib.

Vəssalam. Bu da aktyor və rejissor kimi xalqın sevimlisinə çevrilmiş Şahmar Ələkbərovun yaradıcılıq yolunun yekunu.

Bəli, illər keçəcək, nəsillər dəyişəcək. Bu qəhrəmanlar, bu filmlər gözəl bir sənətçinin, istedadlı bir insanın xatirəsini nəsillərdən-nəsillərə ötürəcək. Biz, istedadlı aktyorun yubileyini onsuz qeyd edirik. Lakin onun özü olmasa da yaratdığı qəhrəmanlar və çəkildiyi filmlər bizimlədir Əbədi xatirəyə çevrilmiş Şahmar Ələkbərov sənəti həmişə belə xoş istəklə xatırlanacaq, yad olunacaq. Allah böyük sənətkara rəhmət eləsin!

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin Şahmar Ələkbərovun 80 illik yubileyi ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı

*Dövrü mətbuatda*


Ağaoğlu T. İstedadlı aktyor // Azərbaycan . - 2008. - 27 avqust. - S. 8.

Azəri G. Kinomuzun Şahmarı : Ş. Ələkbərov - 70 // Mədəni Həyat. - 2013. - № 9. - S. 72-73.

Bürcəliyeva Ş. Şahmarın sənət dünyası : görkəmli aktyor, kinorejissor Şahmar Ələkbərov haqqında // Mədəniyyət. - 2010. - 20 avqust. - N 57. - S. 10.

Elsevər S. Əlliyə çatmayan "uzunömürlü" : atyor Şahmar Ələkbərov haqqında // Mədəniyyət. - 2009. - 14 avqust. - N 58. - S. 11.

Hüseynov Ə. Şahmarın təbəssümü // Ədəbiyyat qəzeti. - 2018. - 3 noyabr. - № 41. - S. 31.

Kinomuzdan bir Şahmar keçdi // Mədəniyyət : qəzet. - 2023. - 23 avqust. - № 61/62. - S. 1.

Məmmədli N. Azərbaycan kinosunun nadir səsli Şahmarı // Mədəniyyət : qəzet. - 2023. - 23 avqust. - № 61/62. - S. 6.

Məmmədova M. İki avqustun bir Şahmarı... // Səs. - 2022. - 24 avqust. - № 151. - S. 10.

Mirməmməd G. Ekrandakı sərhədçi : [Xalq artisti Şahmar Ələkbərov haqqında] // Mədəniyyət. - 2018. - 17 avqust. - № 60. - S. 10.

Mükərrəmoğlu M. Xatirəsi həmişə ürəklərdə yaşayacaq : [Azərbaycan kino rejissoru və aktyoru Şahmar Ələkbərov haqqında] / M. Mükərrəmoğlu // Xalq qəzeti. - 2016. - 25 avqust. - № 185. - S. 7.

Mükərrəmoğlu M. Ömür ki var, bir yelkənli gəmidir... // Xalq qəzeti. - 2009. - 22 avqust. - N 185. - S. 6.
Mükərrəmoğlu M. Yarımçıq qalmış ömrün simfoniyası : Şahmar Ələkbərov - 70 // Xalq qəzeti. - 2013. - 6 oktyabr. - № 221. - S. 11.
Mükərrəmoğlu, M. Ömür ki var, bir yelkənli qayıqdır... // Xalq qəzeti. - 2018. - 3 avqust. - № 171. - S. 6.
Sultanova S. Ekranlaşdırılmış ədəbi əsərlər : Layihədə Elçinin "Toyuğun diri qalması" povesti əsasında çəkilmiş filmi təqdim edirik // Ədəbiyyat qəzeti. - 2019. - 18 may. - № 17. - S. 24.
Sultanova S. Ekranlaşmış ədəbi əsərlər / S. Sultanova// Ədəbiyyat qəzeti. - 2018. - 29 dekabr. - № 51/52. - S. 8-9.
Şahmar Ələkbərovun 75 illiyi tamam olub // 525-ci qəzet. - 2018. - 25 avqust. - № 146. - S. 13.
Tural. Şahmar Ələkbərovun anadan olmasından 73 il ötür // Palitra. - 2016. - 24 avqust. - № 149. - S. 2.
Yunisli F. Milli kinomuzun Şahmarı : Görkəmli sənətkarın 70 illik yubileyi münasibətilə xatirə gecəsi // Mədəniyyət. - 2013. - 4 avqust. - № 62. - S. 7.

# Bir aktyorun nağılı

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**